Moskvaya dövlət səfərindən Vətənə qayıdarkən Binə Beynəlxalq Hava Limanında jurnalistlərə müsahibə verən ulu öndər Qəbələ Radiolokasiya Stansiyasının Rusiya tərəfinə icarəyə verilməsi məsələsinə münasibət bildirib: "Qəbələ Radiolokasiya Stansiyası 10 ildir Rusiya tərəfindən istifadə olunur. İndi isə biz həmin 10 il istifadə olunan Qəbələ stansiyasına, sadəcə, müəyyən hüquq verdik. Yəni sənəd imzaladıq, onu icarəyə verdik. Mənim 1997-ci ilin iyulunda Rusiyaya rəsmi səfərim zamanı biz Rusiya ilə bütün borclarımızı araşdırıb sıfır həddinə çıxmışdıq. Yəni bizim onlara o vaxta qədər olan borcumuzu, onların bizə olan borclarını müəyyən etdik və bu sıfır həddində idi. Ona görə 1997-ci ildən sonra onlar Qəbələ stansiyasını istifadə etmək üçün ildə 6 milyon 200 min dollar bizə borcludurlar. Beləliklə, bizə 31 milyon dollar borcludurlar və biz Qəbələ stansiyasından ildə 13 milyon dollar fayda götürəcəyik. Amma indiyə qədər Qəbələ stansiyası durub orada, istifadə olunub və biz heç bir şey əldə etməmişik. İkincisi, indi, müqavilə imzalanandan sonra biz Qəbələ stansiyasında birgə monitorinq aparacağıq, vəziyyəti öyrənəcəyik. Onlar da oradan arxayınlıqla istifadə edəcəklər və onun ətrafı daha da yaxşı olacaqdır. Onu da nəzərə almalısınız ki, orada 1300 Azərbaycan vətəndaşı işləyir. Özü də yüksək maaş alırlar. Bunu da nəzərə almaq lazımdır. Ona görə hesab edirəm ki, bu məsələdə həm Azərbaycanın maraqları, həm də Rusiyanın maraqları təmin olunubdur".

Rusiyanın Azərbaycana qarşı mövqeyi Azərbaycanın Xəzərin status məsələsi ortaya çıxanda özü-

Ölkəmiz dostluq və qonşuluq münasibətlərinə dəyər verir

24-26 yanvar 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına dövlət səfəri xüsusi əhəmiyyət kəsb edirdi

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra ölkənin qarşısında duran mühüm vəzifələrdən biri xarici siyasət xəttinin müəyyən edilərək həyata keçirilməsi idi. Müstəqilliyin ilk illərində Azərbaycanda hakimiyyətdə olan dairələr bu istiqamətdə heç bir iş görə bilməmiş, vəziyyəti daha da korlamışdılar. Lakin Heydər Əliyevin hakimiyyətə qayıtması xarici siyasətin düzgün aparılmasında və həyata keçirilməsində əsaslı dönüş yaratdı. Heydər Əliyevin xarici siyasətində Azərbaycanın elmini, mədəniyyətini, tarixini dünya dövlətlərinə tanıtmaq, xarici ölkələrlə bərabərhüquqlu, Azərbaycanın mənafeyinə xidmət edən əlaqələr yaratmaq və Qarabağ probleminin həlli ən mühüm yer tuturdu. Ulu öndər ilk öncə qonşu ölkələrlə münasibətləri qaydaya salmaq məqsədilə onlarla Azərbaycan arasında iqtisadi, siyasi cəhətdən sıx əməkdaşlıq yaratdı ki, bu da gənc, müstəqil respublikanın xarici siyasətində mühüm addım idi. Məhz Heydər Əliyevin siyasəti nəticəsində Rusiya ilə olan münasibətlər yenidən bərpa olundu.

Rusiya Federasiyası ilə ölkəmiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsində Azərbaycan Prezidenti Heydər Əliyevin 24-26 yanvar 2002-ci il tarixli dövlət səfəri mühüm əhəmiyyət daşıyıb. Rusiya Federasiyasının prezidentinin Novo-Oqaryovadakı şəxsi iqamətgahında Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə görüşü olub. Görüşdə iqtisadi, siyasi, humanitar və digər sahələrdə hər iki ölkənin əməkdaşlığının böyük perspektivlərə malik olduğunu vurğulayan prezidentlər beynəlxalq və regional təşkilatlar çərçivəsində əlaqələrdən və dövlətlərin bir-birinə göstərdiyi qarşılıqlı dəstəkdən məmnunluqla söhbət açıblar. Azərbaycan Prezidentinin Rusiya Prezidenti ilə təkbətək görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə həlli məsələsi ətrafında geniş fikir mübadiləsi aparılıb. Azərbaycanın dövlət başçısı Heydər Əliyev münaqişənin aradan qaldırılmasında Rusiyanın həlledici rolunu nəzərə çatdırıb, Rusiya Prezidenti Vladimir Putin bu sahədə öz ölkəsinin səylərini daha da artırmağa hazır olduğunu vurğulayıb.

Səfərin proqramı zənginliyi ilə diqqət çəkirdi. Heydər Əliyev Moskvada Rusiya Prezidenti Vladimir Putin, Moskva şəhərinin meri Yuri Lujkov, RF hökumətinin sədri Mixail Kasyanov, xarici işlər naziri İqor İvanov ilə görüşlər keçirib. Azərbaycan Beynəlxalq Bankının Moskva şəhərində törəmə bankının açılış mərasimində çıxış edib. İTAR-TASS agentliyinin ofisində Rusiya Federasiyasının aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşüb. Səfərin gedişində Azərbaycan Prezidentinə Moskva Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim edilib və Heydər Əliyev mərasimdə geniş nitq söyləyib.

Azərbaycan Respublikası və Rusiya Federasiyasının nümayəndə heyətlərinin iştirakı ilə danışıqlardan sonra sənədlərinin imzalanması mərasimi keçirilib. Prezident Heydər Əliyev və Prezident Vladimir Putin Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2010-cu ilədək olan dövr üçün uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müqavilə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Qəbələ Radiolokasiya Stansiyasının ("Dəryal" RLS) statusu, ondan istifadə olunmasının prinsipləri və şərtləri haqqında saziş, hər iki ölkə Prezidentinin birgə bəyanatını imzalayıblar. Rusiya və Azərbaycan nümayəndə heyətinin üzvləri Rusiya Federasiyası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri, istehsal kooperasiyası, vergi qanunvericiliyinin pozulması sahəsində mübarizədə əməkdaşlıq və informasiya mübadiləsi, sərhəd nümayəndələrinin fəaliyyəti haqqında sazişləri imzalayıblar. Sənədlərin imzalanması mərasimindən sonra kütləvi informasiya vasitələri nümayəndələri qarşısında bəyanatla çıxış edən Rusiya Prezidenti Vladimir Putin Azərbaycan dövlət başçısının səfərini ikitərəfli münasibətlərin inkişafında ciddi mərhələ kimi qiymətləndirib. Azərbaycan Prezidenti Heydər Əliyev bu görüşün Rusiya-Azərbaycan münasibətlərində çox mühüm yer tutacağını vurğulayıb.

Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına dövlət səfəri bu ölkənin, eləcə də dünyanın müxtəlif kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub. Rusiyanın informasiya agentlikləri, qəzetləri, radio və televiziya kanalları dövlətimizin başçısının bu səfərinə xüsusi diqqət göstərmiş, səfərin bütün təfərrüatını əks etdirən çoxsaylı məlumatlar yaymışlar. Həmin günlər "İzvestiya" qəzeti yazırdı: "Rusiya paytaxtına bu cür böyük miqyaslı siyasətçilərin gəlişi özü-özlüyündə vacib hadisədir".

Prezident Heydər Əliyev bütün xarici səfərlərində olduğu kimi, bu dəfə də Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsinin müzakirəsinə xüsusi yer ayırıb. Rusiya Prezidenti Vladimir Putin ilə kütləvi informasiya vasitələrinə birgə bəyanatında bu barədə danışaraq deyib: "Məmnunam ki, Rusiya Federasiyası və şəxsən Prezident Putin bu məsələyə böyük diqqət yetirir və fəal tədbirlər görür. Mən ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin - Rusiya da həmsədrdir - gələcəkdə öz səylərini artıracağına, habelə Prezident Putinin bundan sonra da bu məsələdə səy göstərəcəyinə ümid bəsləyirəm. Bu barədə biz fikir mübadiləsi etdik və mən buna ümid edirəm, çünki Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması təbiidir ki, bizim üçün həyati əhəmiyyətə malikdir. Lakin bu məsələ bütün Qafqaz üçün də böyük əhəmiyyət kəsb edir. Deməli, təkcə Qafqaz üçün deyil, həm də bütün Avropa üçün əhəmiyyətlidir... Hesab edirəm, bizim ictimaiyyətimiz də bu fikirdədir ki, Rusiya bu məsələdə mühüm və bəlkə də həlledici rol oynaya bilər".

nü göstərdi. 1994-cü il "Əsrin müqaviləsi"nin imzalanması zamanı Azərbaycanın Xəzərin milli sektorlara bölünməsi məsələsində Rusiyanın Azərbaycanı dəstəkləməsi bu münasibətlərin nə qədər sıx olduğunu göstərdi. Heydər Əliyevin uzaqgörən siyasəti həm Rusiya ilə münasibətləri bərpa etməyə, həm də Xəzərin status məsələsinə bir çarə tapmağa imkan verdi ki, bu da uzun zamandır yaranan bu məsələnin həllinə gətirib çıxardı. İlk dəfə olaraq Rusiya prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri və ölkələrimiz arasında iqtisadi, mədəni inkişafı bərpa etmək üçün imzalanmış bir çox sənədlər bu siyasətin uğurlu nəticəsi idi. Heydər Əliyevin Rusiyaya rəsmi səfəri iki dövlət arasında çözülməyən məsələlərin həllində, Qəbələ Radiolokasiya stansiyasının Rusiyaya icarəyə verilməsi ilə Azərbaycan Rusiya münasibətlərində yeni mərhələ dövrü başlandı. 2003-cü ildə Vladimir Putin Heydər Əliyevi Azərbaycan və Rusiya arasındakı münasibətlərin inkişafındakı uğurlara görə Rusiyanın ən yüksək dövlət mükafatı - "Andrey Pervozvannı" ordeni ilə təltif etdi.

Ulu öndər Heydər Əliyevin balanslaşdırılmış xarici siyasət strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev də Rusiya ilə ikitərəfli əlaqələrin genişləndirilməsini vacib amil kimi diqqət mərkəzində saxlayır. Azərbaycan Prezidentinin 2004-cü ilin əvvəllərində Rusiyaya ilk rəsmi səfəri bu baxımdan əlamətdar olub. Dövlətimizin başçısının Rusiyaya ardıcıl rəsmi səfərləri Azərbaycanın şimal qonşumuzla dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafına verdiyi önəmi təsdiqləyir. Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri çərçivəsində sovet İttifaqında ən nəhəng tikintilərdən biri - ümummilli liderin adı ilə bağlı olan Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə təntənəli yubiley tədbiri BAM-ın tikintisi məsələləri üzrə daimi komissiyasının rəhbəri kimi bu nəhəng layihənin reallaşdırılmasında müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin xatirəsinə və nümunəvi fəaliyyətinə göstərilən yüksək ehtiramın daha bir ifadəsi idi.

Mustafa KAMAL,
"Respublika".